**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ**

# ƏMR

**№ 114**

**Bakı şəhəri** "15" avqust 2013-cü il

**ARDNŞ-nin şirkətdaxili standartlarının təsdiq edilməsi barədə**

Məsləhətçi şirkəti cəlb etməklə hazırlanmış standart sənədlərin layihələrinin aidiyyəti struktur bölmələri ilə razılaşdırılmasını nəzərə alaraq, fəaliyyət sahəsinin prioritet istiqamətləri üzrə beynəlxalq təcrübəyə uyğun olaraq, ARDNŞ-nin standartlar sisteminin formalaşdırılması sahəsində müsbət tendensiyanı inkişaf etdirmək məqsədilə

**əmr edirəm:**

1. "ARDNŞ-nin strukturuna daxil olan qurumların balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı (SOCARSS – 004.2013)" standartı təsdiq edilsin (Əlavə I).

2. "ARDNŞ-nin strukturuna daxil olan qurumlar arasında əsas vəsaitlərin balansdan-balansa verilməsi (SOCARSS – 005.2013)" standartı təsdiq edilsin (Əlavə II).

3. "SOCARSS – 004 .2013" standartının 01.2-ci bəndində nəzərdə tutulmuş məsul qurumun səlahiyyətləri ARDNŞ-nin 08.12.2004-cü il tarixli 125 nömrəli əmri ilə yaradılmış Mərkəzi ləğvetmə komissiyasına həvalə edilsin.

4. "SOCARSS – 005.2012" standartının 01.4 və 01.6-cı bəndlərində nəzərdə tutulmuş "müvafiq struktur bölmənin" səlahiyyətləri ARDNŞ-nin Baş ofisinin İqtisadiyyat və Uçot İdarəsinin Əsaslı fondların idarə edilməsi şöbəsinə həvalə edilsin.

5. ARDNŞ-nin Baş ofisinin Hüquq İdarəsinə (E.Orucov) tapşırılsın ki, standartların kağız variantlarda qeydiyyatının aparılmasını, saxlanılmasını təmin etsin.

6. ARDNŞ-nin Baş ofisinin İnformasiya Texnologiyaları Departamentinə (İ.Aslanov) tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş standartları ARDNŞ-nin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Bu əmrin icrasına nəzarət ARDNŞ-nin vitse-prezidenti M.İsmayılova həvalə edilsin.

**Prezident** **Rövnəq Abdullayev**

ƏSLİ İLƏ DÜZDÜR
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin rəisi
N.Səmədova
"15" 08 2013 il

*Əlavə II*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin 15.08.2013-cü il tarixli,*
*114 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi.**
**ARDNŞ-nin strukturuna daxil olan qurumları arasında əsas vəsaitlərin balansdan-balansa verilməsi**
(SOCARSS – 005.2013)

---

01.1 **Standartlaşmanın məqsədi** - ARDNŞ-yə məxsus əsas vəsaitlərin şirkətin strukturuna daxl olan qurumlar (bundan sonra – "Qurumlar") arasında balansdan-balansa verilməsi ilə bağlı münasibətləri tənzimləməkdir.

01.2 **Balansdan-balansa verilmənin məqsədi** - əsas vəsaitlər Qurumlara əvəzsiz olaraq, onların fəaliyyət istiqamətləri nəzərə alınmaqla, təsərrüfat fəaliyyətinin təmin edilməsi məqsədi ilə verilir.

01.3 **Balansdan-balansa verilməsi proseduru** – Qurum tərəfindən əsas vəsaitlərin verilməsinin zəruriliyi və məqsədəuyğunluğu göstərilməklə Şirkətin rəhbərləri arasında vəzifə bölgüsünə əsasən müvafiq sahə üzrə rəhbərinə müraciət edilir. Müraciətə Şirkətin aidiyyəti qurumların iştirakı ilə baxılır və 25 təqvim günündən gec olmayaraq müvafiq qərar qəbul edilməsi üçün tədbirlər görülür.

01.4 **Balansdan-balansa verilməyə əsas** – Qurumun Daxili intizam qaydalarına uyğun olaraq müvafiq yuxarı idarəetmə orqanının aşağıdakı qaydada verilmiş qərarıdır. (sərəncamdır):

- ARDNŞ-nin birbaşa tabeliyində olan Qurumlara münasibətdə ARDNŞ-nin prezidentinin sərəncamı;

- Qurumun tabeliyində olan təşkilatlara münasibətdə ARDNŞ-nin Baş ofisi ilə razılaşdırılmaqla Qurumun rəhbərinin sərəncamı. Əsas vəsaitlərin yerdəyişməsini ARDNŞ-nin Baş ofisinin müvafiq struktur bölməsi tərəfindən müəyyən etməyə imkan verən proqram təminatları tətbiq olunduğu sahələr istisna olmaqla ARDNŞ-nin Qurumunun təşkilatları daxilində əsas vəsaitlərin balansdan-balansa verilməsi barədə qərarlar haqqında növbəti təqvim ayı ərzində ARDNŞ-nin Baş ofisinə məlumat verilməlidir.

01.5 **Tikintisi başa çatdırılmamış obyektlərin verilməsi** - Tikintisi başa çatdırılmamış obyektlərin balansdan-balansa verilməsi bu standartın 01.3-01.4-cü bəndləri ilə müəyyən edilmiş qaydada aparılır. Bu halda müvafiq yarımçıq tikiliyə aid olan bütün xərclərin, ona aid olan əmlak və materialların, layihə-smeta və texniki-normativ sənədlərin təhvil verilməsi tərəflər arasında tərtib edilmiş akta əsasən həyata keçirilir.

01.6 **Balansdan-balansa verilmə prosedurunun rəsmiləşdirilməsi** – ARDNŞ-nin sərəncamı qüvvəyə mindiyi tarixdən əsas vəsaitləri təhvil verən və ya qəbul edən tərəfin əmri ilə təhvil-qəbul əməliyyatlarının aparılması üçün komissiya yaradılır. Komissiya tərəfindən balansdan-balansa verilən əsas vəsaitlərin tam inventarizasiyası aparılır. Müvafiq inventarizasiya aktı (vərəqi) tərtib olunur. Əsas vəsaitlərin müvafiq inventarizasiya aktının əlavə olunduğu təhvil-qəbul aktına uyğun olaraq təhvil verənin balansından çıxarılır, qəbul edən tərəfin balansına daxil edilir. Yarımçıq tikilinin inventarizasiya aktında göstərilmiş çatışmazlıqlar təhvil verən qurum tərəfindən müəyyən edilmiş müddətdən gec olmayaraq aradan qaldırılmalıdır. Təhvil-qəbul aktının bir nüsxəsi Baş ofisin müvafiq struktur bölməsinə təqdim edilməlidir.

01.7 **Təhvil-qəbul aktının məzmunu** – təhvil-qəbul aktında əsas vəsaitlərin təsviri (təyinatı (kateqoriyası), texniki göstəriciləri, ünvanı, dövlət registri nömrəsi, inventar nömrəsi və s.), ilkin dəyəri, amortizasiya məbləği, qalıq dəyəri, eləcə də mövcud vəziyyəti barədə məlumatlar öz əksini tapmalıdır. Təhvil-təslim aktı təhvil-qəbul əməliyyatlarının aparılması üçün bu standartın 01.6-ci bəndi ilə müəyyən edilmiş qaydada müvafiq komissiya tərəfindən imzalanmalı və Qurumun rəhbərləri tərəfindən təsdiq edilməlidir.

01.8 **Məsuliyyət** – Qurumun rəhbərləri istifadə olunan əsas vəsaitlərin qorunub saxlanılmasına, həmin əmlakdan yalnız qanunvericiliklə və nizamnamələri (əsasnamələri) ilə müəyyən edilmiş məqsədlər üçün istifadə edilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

**Vizalar:**

| | |
|---|---|
| Vitse-prezident | M.İsmayılov |
| İqtisadi məsələlər üzrə vitse-prezident | S.Qasımov |
| İqtisadiyyat və Uçot İdarəsinin rəisi | V.Şərifov |
| Hüquq İdarəsinin rəisi | E.Orucov |

**Göndərilir:** ARDNŞ-nin vitse-prezidentlərinə, Baş ofisinin İqtisadiyyat və Uçot İdarəsinə, Hüquq İdarəsinə, ARDNŞ-nin müəssisələrinə.

**İcraçı:**

Hüquq İdarəsinin Hüquqi mübahisələr və müqavilələrlə iş şöbəsinin rəis müavini — V.Eyvazov

"31" iyul 2013-cü il

Tel: 10-250